# Məcburi köçkünlər tezliklə doğma yurdlarına qayıdacaqlar



## Onlar 27 il bu xoşbəxt anların həsrətində olublar

***Azərbaycanın igid əsgər və zabitləri Qarabağ cəbhəsində son günlər bir-birindən parlaq uğurlar qazanırlar. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz artıq bir neçə rayonu və qəsəbəni, 150-dən çox kəndi düşməndən təmizləyib. Rəşadətli Azərbaycan Ordusunun şanlı zəfər yürüşü uğurla davam edir. Bütün bunlar ölkə ictimaiyyətində sonsuz sevinc və fərəh hissləri doğurur.***

Xüsusilə, ölkəmizin işğal olunmuş rayonlarından olan məcburi köçkün ailələrinin sevinci bu günlərdə yerə-göyə sığmır. Axı, onlar tezliklə uzun illər həsrətində olduqları doğma yurdlarına qayıdacaqlar. Əməkdaşımız həmin ailələrin üzvləri ilə görüşərək, onların fikir və düşüncələrini qeydə almışdır.

**Hüseyn XUDAYAROV,**
**Zəngilan rayonu:**

– Mən iki gün əvvəl rəşadətli Azərbaycan Ordusunun erməni faşistlərindən azad etdiyi Zəngilan rayonunun Vənədli kəndindənəm. Dağların qoynunda, olduqca səfalı və bərəkətli torpaqlarda yerləşən doğma kəndimi mənə, bütün kənd camaatına yenidən bəxş edən sevimli Prezidentim, cənab İlham Əliyevin, bütün igid əsgər və zabitlərimizin qarşısında ehtiramla baş əyirəm.

Dünyada torpaq itkisindən ağır dərd yoxdur. Doğma Vənədlidən ayrıldığım 27 il ərzində mən bu ağır möhnəti ürəyimdə daşımışam. Kəndimiz, demək olar ki, hər gecə yuxularıma gəlirdi. Hazırda xeyli yaşım var. Amma kəndə qayıdan kimi, böyük həvəslə qurub-yaradacağam.

Hər bir insan o vaxt tam xoşbəxt olur ki, azad, qüdrətli və şanlı bir məmləkətin vətəndaşı sayılır. Prezident İlham Əliyevin sayəsində Azərbaycan bu gün təkcə regionda deyil, bütün dünyada sayılıb- seçilən dövlətlərdən biridir.

Mən əlimi ürəyimin başına qoyub fəxrlə deyirəm: Bu gün müstəqil Azərbaycan dövlətinin vətəndaşı olduğum üçün həqiqətən xoşbəxtəm!

***Oruc QULİYEV,***
***Cəbrayıl rayonu:***

– Mən Cəbrayıl rayonunun Şıxalıağalı kəndindənəm. Hazırda altmış beş yaşın içindəyəm. Həyatımın ən gözəl, unudulmaz günlərini doğma kəndimdə yaşamışam.

Düzdür, Azərbaycan dövləti hər zaman bütün qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə çox böyük diqqət və qayğı göstərib. Bu ailələrin böyük bir qismi yeni mənzillərlə təmin olunub. Onlar üçün çox sayda iş yerləri yaradılıb, başqa sosial problemləri həll olunub. İnsafən, bu istiqamətdə bütün lazımi işlər görülməkdə davam edir.

Lakin heç nə insana doğma ocağı qədər əziz ola bilməz. İlk imkan yaranan kimi doğma kəndimə qayıdacağam. Bu günlərdə Müdafiə Nazirliyi tərəfindən Cəbrayılın bir neçə kəndinin videosu yayılıb. Yağı düşmən həmin kəndlərdəki bütün evləri vəhşicəsinə dağıdıb. Amma, bu, bizi həvəsdən salmır. Biz dövlətimizin, müdrik Prezidentimizin qayğısı sayəsində yeni evlər inşa edəcək, yollar salacağıq.

Siz kəskin təzada fikir verin. Azərbaycan Qarabağda qurub-yaradır, Ermənistan isə dağıdır! Bu "yazıq", "məzlum millət"in xisləti budur: Onlar faşistlərdən də betər vəhşidirlər!

***Razim ƏLİYEV,***
***Qubadlı rayonu:***

– Möhtərəm Prezidentimiz bu ilin oktyabrın 25-də Qubadlı şəhərinin azad olunması ilə bağlı müjdə verməklə bütün qubadlılılara sonsuz sevinc bəxş etdi.

Mən Qubadlı rayonunun Əyin kəndindənəm. Bu, həmin Əyin kəndidir ki, Azərbaycan ədəbiyyatına Xalqı yazıçısı, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rəhimov kimi böyük ədib verib. Kəndimiz onlarca başqa tanınmış ziyalı, elm və mədəniyyət xadimləri yetirib.

Amma son günədək əyinlilərin hər birinin ürəyində torpaq itkisi yarası qövr edirdi. Müzəffər Azərbaycan Ordusunun ən yaxın günlər ərzində Qubadlı rayonunu, onun kəndlərini, eləcə də Əyini Ermənistan silahlı qüvvələrindən tamamilə təmizləyəcəyinə əminəm.

Bu günlərdə Azərbaycan Ordusunun sıralarında mənim yaxınlarım, doğmalarım da vuruşur. Əslində, hər bir qeyrətli əsgər və zabitimiz bu gün hər bir azərbaycanlının əzizi və doğmasıdır. Allah bütün əsgərlərimizi qorusun!

***Mayis KAZIMOV,***
***Füzuli rayonu:***

– Mən son günlər həyatımın ən xoşbəxt anlarını yaşayıram. Rəşadətli Azərbaycan Ordusu Füzuli rayonunu və rayonun əksər kəndlərini işğaldan azad etmişdir. Mənim doğulub boya-başa çatdığım Seyidəhmədli kəndi də erməni yaraqlılarından tamamilə təmizlənmişdir.

Bu xoşbəxt günü görməyi çox arzulayırdım. Təqaüdçüyəm. Dünyadan nisgilli köçəcəyimdən qorxurdum. Allah mənə bu xoşbəxtliyi də nəsib etdi! Ali Baş Komandana, bütün əsgər və zabitlərimizə sonsuz minnətdarlığımı bildirirəm.

Güclü, müdrik lideri olan xalq yenilməzdir. Azərbaycan xalqı xoşbəxtdir ki, onun cənab İlham Əliyev kimi qətiyyətli Ali Baş Komandanı, müdrik dövlət başçısı var.

Xalqımızın üçrəngli bayrağının ən yaxın günlərdə Şuşada, Xankəndidə dalğalanacağı anı böyük səbirsizliklə gözləyirəm. İnşallah, böyük qələbəmiz yaxındadır!

***Qələmə aldı:***
***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***